# Politicon

politicon.co


## Kvemo-Kartli: ikinci Abxaziya və ya Cənubi Osetiya keysi mümkündürmü?


*Nuray Rüstəmova*


*Sentyabr 2020*

### Giriş

Etnik baxımdan çoxmillətli ölkə olan Gürcüstanda millətçilik meyilləri hər zaman olmuşdur. Müxtəlif etnik qruplar arasında çaxnaşmalar bu meyillərin artmasına və konfliktlərin yaranmasına səbəb olmuşdur. Gürcüstandakı bu konfliktlərə Abxaziya və Cənubi Osetiya keyslərini misal göstərmək olar. Bundan əlavə, azərbaycanlı və ermənilərin müvafiq olaraq yaşadığı və etnik baxımdan (dominant qrupdan) üstünlük təşkil etdiyi Kvemo-Kartli və Samstxe-Cavaxetiya regionları da bir sıra araşdırmaçılar tərəfindən potensial münaqişə ocaqları olaraq hesab edilir. Bu araşdırmada biz regionun tarixi inkişaf yoluna, yerli əhalinin münasibəti və ona təsir edən amillərə nəzər salaraq aşağıdakı suala cavab axtaracağıq: yerli azərbaycanlıların üstünlük təşkil etdiyi Kvemo-Kartli gələcəkdə Gürcüstan üçün ikinci bir Abxaziya və ya Cənubi Osetiya nümunəsinə çevrilə bilərmi?




Şəkil 1. Gürcüstanın millət/etnik xəritəsi

## Regionun tarixi

2014-cü ilin demoqrafik statistikalarına əsasən, Gürcüstanda əhalinin 13%-ni etnik azlıqlar təşkil edir. Belə ki, milli baxımdan ilk sırada etnik gürcülər (86.8%), ikinci yerdə azərbaycanlılar (6.3%) gəlir[1]. Azərbaycanlılar, əsasən, Gürcüstanın Kvemo-Kartli, Kaxeti, Şida-Kartli vilayətlərində və Tbilisi, Kutaisi və Rustavi kimi iri şəhərlərində kompakt şəkildə yaşayırlar. Marneuli, Bolnisi, Dmanisi, Qardabani kimi rayonlarda isə əhalinin əksəriyyətini yerli azərbaycanlılar təşkil edir[2]. Onlar özlərini etnik baxımdan "tərəkəmə" və ya "qarapapaqlar" kimi təqdim edirlər[3]. Azərbaycanlılar bir neçə əsrdir ki, burada ermənі və gürcülərlə kompakt şəkildə yaşayır, lakin onların ermənilərlə müqayisədə gürcülərlə qeydə alınacaq böyüklükdə münaqişəsi baş verməyib. Maraqlıdır ki, Gürcüstan azərbaycanlıları eynilə gürcülər kimi "ölkə sahiblərinin" onların üzərində dominant olmasını inkar etmir və bundan narahatlıq hiss etmirlər.

Azərbaycanlıların Gürcüstanda sıxışdırılmağa başlanılması, əsasən, Sovet İttifaqının dağılması ərəfəsi və yeni Respublikanın qurulması dövrlərində baş vermişdir. Belə ki, Sovet İttifaqının çökməsinə doğru demək olar ki, əksər post-Sovet ölkələrində millətçilik meyilləri baş qaldırmağa başladı. Bu cür meyillərin yaranması, təbii ki, çoxmillətli Qafqazdan da yan keçmədi. Qafqazın hər üç ölkəsi – Gürcüstan, Azərbaycan və Ermənistanda millətçilik dalğası özünü göstərməyə başladı və üzərindən 30 il keçməsinə baxmayaraq hələ də bu siyasətin xoş olmayan nəticələri öz aktuallığını qoruyub saxlayır. Həmin dövrlər millətçilik dalğasının baş qaldırmasını hər üç ölkədə müxtəlif səbəblərlə izah etmək olar. Gürcüstan üçün millətçilik keçmiş Sovet ənənələrindən qurtulmaq demək idi. Gürcüstanın ilk Prezidenti Zviad Qamsaxurdiya "Gürcüstan gürcülər üçün" şüarını seçərək sağ yönümlü dövlət siyasəti yürütmüş və həmin dövrdə Gürcüstandakı etnik azlıqlarla dominant qrup arasında müəyyən toqquşmalar baş vermişdir[4]. Qamsaxurdiyanın fikirlərinə əsasən, etnik azlıqlar dövlətin suverenliyini qorumağa təhlükə yaradan qüvvələr idi. Bu səbəbdən də o, öz millətçiliyini "dövlətçiliyi qoruyan" millətçilik kimi təsnif edirdi[5].

O və tərəfdaşları hakimiyyətə gəlmədən bir neçə il öncə - Sovet hökumətinin son illərində aktivləşməyə başlamış, bu aktivliyin nəticəsi olaraq isə yuxarıda qeyd olunan - azərbaycanlıların üstünlük təşkil etdiyi regionlarda azərbaycanlılar vəzifələrindən çıxarılmış, lokal hakimiyyət gürcülərlə əvəz olunmuşdu. Həmin dövrdə 800-dən çox azərbaycanlı ailə Rusiya ilə əlbir olmaqda ittiham edilərək Gürcüstandan məcburi çıxarılmış, Bolnisi, Dmanisi, Kazreti kimi azərbaycanlıların demoqrafik cəhətdən üstünlük təşkil etdiyi kəndlər tamamilə boşalmışdı[6].

Qamsaxurdiyanın prezident postunu tərk etməsindən sonra onun yerinə gələn Eduard Şevardnadze sələfindən fərqli olaraq, etnik azlıqlara qarşı yumşaq siyasət yürütmüş və "saf millətçilik" siyasətini qəbul etməmişdir. Həmçinin, onun həmin dövrdə Azərbaycan Respublikasının prezidenti vəzifəsində olan Heydər Əliyevlə olan yaxşı münasibətləri sayəsində Gürcüstan azərbaycanlılarının təhlükəsizliyi təmin olunmuşdur. Şevarnadzenin dövründə azərbaycanlılarla gürcülər arasında

[1] Vikipediya: Gürcüstanın demoqrafiyası. https://en.wikipedia.org/wiki/Demographics_of_Georgia_(country)

[2] Vikipediya: Gürcüstan azərbaycanlıları. https://az.wikipedia.org/wiki/G%C3%BCrc%C3%BCstan_az%C9%99rbaycanl%C4%B1lar%C4%B1

[3] Vikipediya: Qarapapaqlar. https://en.wikipedia.org/wiki/Qarapapaqs

[4] Vikipediya: Gürcüstan azərbaycanlıları Qamsaxurdiyanın Prezidentliyi dövründə. https://en.wikipedia.org/wiki/Azerbaijanis_in_Georgia#Gamsakhurdia's_presidency

[5] Caucasus Edition: Ethnic Groups and Conflicts in the South Caucasus and Turkey (2016). https://caucasusedition.net/ethnic-groups-and-conflicts-in-the-south-caucasus-and-turkey/

[6] Karli-Jo T. Storm: ""Who and Where are We?" Landscapes as Mediums of Identity Negotiation for Georgia's Azeri-Turks, 453.

"qonaq – ev sahibi" münasibəti səngidi, lakin etnik azlıqların ölkəyə inteqrasiya etməsi ilə bağlı ciddi addımlar atılmadı[7].

Sonuncu iki hakimiyyət – Mixail Saakaşvilinin "Vahid Milli Hərəkat" partiyası (2003-2012) və hal-hazırkı iqtidar "Gürcü Arzusu" (2013 – 2020) digərlərindən fərqli olaraq etnik azlıqların ölkəyə inteqrasiyası və sosial həyatda aktivliyi üçün diqqətəlayiq addımlar atmışlar, lakin bu addımlar müəyyən dərəcədə əks-təsirlər göstərmiş və yerli azərbaycanlılar tərəfindən diskriminativ olaraq qiymətləndirilmişdir.

Sonda Gürcüstanda radikal, dini, etnik və ya digər millətçilər rəsmi olaraq əhalinin səfərbərliyi üçün bir-birini əvəz etdi. İdeologiya Gürcüstanın Sovet İttifaqından müstəqilliyini bərpa etməsində rol oynamış, eyni zamanda millətlərarası və vətəndaş qarşıdurmalarına səbəb olmuş, bunun təsirləri hələ də silinməmişdir[8].

## Konflikt yarada biləcək səbəblər

Avrasiya, xüsusilə də, Cənubi Qafqaz, Türkiyə və Mərkəzi Asiya siyasəti və təhlükəsizliyi sahəsində ixtisaslaşmış İsveç alimi Svante E. Kornel "Muxtariyyət və Münaqişə: Etnoterritoriallıq və separatizm, Cənubi Qafqaz - Gürcüstandakı hadisələr" adlı elmi işində Qafqazda konflikt yarada biləcək faktorlar haqqında danışır. Bu faktorlara mədəni fərqlər, milli konsepsiya, keçmiş konflikt və miflər, landşaft, demoqrafiya, xaricdəki etnik bağların mövcudluğu, iqtisadi davamlılıq, radikal liderlik, xarici dəstək və muxtariyyət kimi amillər daxildir. Bu 10 faktorun hər birinin ayrı-ayrılıqda Cənubi Qafqazdakı etnik azlıqlarda mövcudluğunu 1 balla qiymətləndirən alim sonda aşağıdakı cədvəldəki kimi bir nəticə irəli sürür. *("DQR" – "Dağlıq Qarabağ Respublikası", ABX – Abxaziya, COS – Cənubi Osetiya, GER – Gürcüstandakı ermənilər, ACM – Acarıstan Muxtariyyəti, GAZ – Gürcüstandakı azərbaycanlılar, EAZ – Ermənistandakı azərbaycanlılar, LƏZ – ləzgilər, TAL – talışlar)*

**Qeyd:** *yaşıl rəng – "var", qırmızı rəng – "yoxdur".*

Cədvəl: Münaqişəyə meyillilik

| KEYS | Məd. Fərq. | Mil. Kons. | Keç. Konf. | Land. | Demo. | X.E. Bağ. | İqt. Davam. | Rad. Lider | Xar. Dəst. | Muxt. | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| DQR | 🟢 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 10 |
| ABX | 🔴 | 🟢 | 🟢 | 🟢 | 🔴 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 8 |
| COS | 🔴 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 🔴 | 🟢 | 🟢 | 🟢 | 8 |
| GER | 🔴 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 🟢 | 🔴 | 🟢 | 🟢 | 🔴 | 7 |
| ACM | 🔴 | 🔴 | 🔴 | 🟢 | 🟢 | 🔴 | 🟢 | 🔴 | 🟢 | 🟢 | 5 |
| GAZ | 🟢 | 🟢 | 🔴 | 🔴 | 🟢 | 🟢 | 🟢 | 🔴 | 🔴 | 🔴 | 5 |
| EAZ | 🟢 | 🟢 | 🟢 | 🔴 | 🔴 | 🟢 | 🔴 | 🔴 | 🔴 | 🔴 | 4 |
| LƏZ | 🔴 | 🔴 | 🔴 | 🟢 | 🟢 | 🟢 | 🔴 | 🟢 | 🔴 | 🔴 | 4 |
| TAL | 🔴 | 🔴 | 🔴 | 🔴 | 🟢 | 🟢 | 🔴 | 🟢 | 🔴 | 🔴 | 3 |

[7] İbid.

[8] 1980-ci illərin sonu və 1990-cı illərin əvvəllərində Ermənistanda, Azərbaycanda və Gürcüstanda yeni millətçiliyin yüksəlişi (2018) https://caucasusedition.net/the-rise-of-new-nationalism-in-armenia-azerbaijan-and-georgia-in-the-late-1980s-and-early-1990s/

İndi isə cədvəldə Gürcüstan azərbaycanlılarına məxsus xüsusiyyətlərə yaxından baxaq.

**Mədəni fərqlilik:** yuxarıda da qeyd edildiyi kimi Gürcüstan azərbaycanlıları islam dininə etiqad edirlər. Bu da əksəriyyəti xristian dininə etiqad edən gürcülər arasında azərbaycanlılar üçün kəskin mədəni fərqliliyin yaranmasına səbəb olur. Həmçinin, danışıq dilinin fərqli olması da mədəni fərqə daxildir.

**Milli konsepsiya:** Kornel qeyd edir ki, ölkənin milli konsepsiyası ölkədəki bir etnik qrupun maraqlarına nə qədər çox yaxındırsa, ölkədəki münaqişə potensialı da o qədər yuxarıdır. Gürcüstan Respublikasının milli konsepsiyası isə əsasən, ölkədəki dominat qrupun – gürcülərin maraq dairəsinə daha uyğundur. Məsələn, ölkədəki etnik azlıqlardan vətəndaşlıq almaq üçün gürcü dili testindən keçmələri tələb olunur.

**Demoqrafiya:** hansısa regionda müəyyən bir etnik azlığın üstünlük təşkil etməsi həmin regionda münaqişə riskini artırır. Məsələn, əhalinin 80%-ni azərbaycanlıların təşkil etdiyi Marneuli potensial konflikt zonası hesab edilə bilər.

**Xarici ölkədə etnik bağların mövcudluğu:** Gürcüstan azərbaycanlılarının Azərbaycan Respublikası arasında yaşayan azərbaycanlılarla sıx əlaqələri mövcuddur. Onlar Azərbaycanı "ikinci vətən" hesab edirlər. Dil baryeri səbəbindən bir çoxu informasiyanı Azərbaycan dilində - bu ölkənin maraqlarına uyğun hala gətirilmiş formada qəbul edir deyə bu əlaqə daha da möhkəmlənir.

**İqtisadi davamlılıq:** bu faktor iki halda özünü büruzə verir; ya regiounun iqtisadi qabiliyyəti yüksək olur, lakin yerli əhali bundan faydalana bilmir, ya da regiounun iqtisadi aktivliyi ümumiyyətlə aşağı olur ki, bu da əhali arasında sosial-iqtisadi problemlərin yaranmasına gətirib çıxarır. Gürcüstan azərbaycanlılarının yaşadığı ərazidə, əsasən, ikinci keys özünü doğruldur. Paytaxt Tbilisidən 50 km-lik məsafədə olmasına baxmayaraq, burada iqtisadi inkişaf zəifdir. Bunun başlıca səbəblərindən biri də yerli əhalinin vərdişləridir. Belə ki, bu regionda yaşayan insanlar uzun müddətdir ki, əsasən, kənd təsərrüfatı ilə məşğul olur. Lakin burada hökumətin laqeydliyini də qeyd etmək lazımdır. Regiona kapitalın investisiya edilməməsi və yeni iş yerlərinin açılmaması səbəbi ilə gənc nəslin əksər hissəsi işsizlikdən əziyyət çəkir. Bu da yerli əhali arasında hökumətə qarşı aqressiya ilə nəticələnir.

Gürcüstanda münaqişə yarada biləcək etnik azlıqlara nəzər saldıqda Samstxe-Cavaxetiyadakı ermənilər gözə çarpır. Samtsxe-Cavaxetiya Gürcüstanın cənub-qərbində yerləşən inzibati bölgədir. Bu bölgədə, təxmini olaraq, 90 min erməni yaşayır. Burada yaşayan ermənilər azərbaycanlılardan fərqli olaraq siyasi baxımdan olduqca aktivdirlər. Onların yaşadığı ərazidə siyasi fiqurların elə ermənilərdən ibarət olmasını da bu aktivliklə izah etmək olar. Regiondakı azərbaycanlıların Azərbaycan Respublikası ilə sıx əlaqələri olduğu kimi ermənilərin də Ermənistan Respublikası ilə möhkəm bağları var. Lakin bu iki icmanın iki dövlətlə bağlılıqları arasında ciddi fərqlər var. Hər iki ölkə Gürcüstandakı etnik qohumlarını dəstəkləyir, amma necə? Azərbaycan Respublikası Gürcüstan hökuməti ilə yaranmış yaxşı əlaqələri və regiondakı sülhü və təhlükəsizliyi pozmamaq naminə Gürcüstandakı azərbaycanlılara Gürcüstan dövlətinə sadiq olmağı təbliğ edir. Ermənistan tərəfində isə bu əksinədir. Rusiya Axalkələkdəki rus bazasını boşaldarkən, götürmədiyi yüngül silahları buradakı bəzi erməni təşkilatlarına təhvil verdi. Ruslar bu silahlı erməni təşkilatlarını anti-Rusiya siyasəti yürüdən Gürcüstan hökumətinə qarşı istifadə etməyə çalışır. Əlavə olaraq, "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək istəyən ermənilərin bu torpaqlar üzərində ərazi iddiaları var. Yerevan vaxtaşırı Gürcüstan ermənilərini Tbilisi rəhbərliyinə qarşı təhrik etməkdən çəkinmir. Gürcüstan-Rusiya müharibəsindən sonra Gürcüstanı osetinlərin soyqırımına cəhddə ittiham edən

Ermənistan prezidenti Levon Ter-Petrosyan və ya Abxaziyada gürcülərə qarşı vuruşan ermənilərin güclü hərbi rolu bu siyasi şübhələrə daha çoxunu əlavə edir.[9] Gürcüstan kəşfiyyatı və təhlükəsizlik qüvvələri ermənilərin bu separatçı fəaliyyətindən xəbərdardır və burada bəzi silahlı qrupları və qeyri-hökumət təşkilatlarını zərərsizləşdirmək üçün mübarizə aparırlar.[10]

## Problemlər. Diskriminasiya

Gürcüstanda yaşayan azərbaycanlılar bir çox problemlə üz-üzədir. Bunlardan ən əsası isə dil baryeridir. Qızılgül inqilabından bəri hökumət azlıqların gürcü dilində yerli məmurlarla ünsiyyət qurmalarını, rəsmi sənədləri gürcü dilində əldə etmələrini, gürcü dilində şikayətlər göndərmələrini və ya xidmətləri gürcü dilində almalarını məcbur edən qanunlar tətbiq edir[11]. Xüsusilə, keçmiş prezident Mixail Saakaşvilinin dövründə azərbaycanlılar da daxil olmaqla etnik azlıqların Gürcüstan cəmiyyətinə inteqrasiyasını sürətləndirmək üçün təhsil sahəsində müəyyən işlər görülmüşdür. Gənc nəsil gürcü dilini daha yaxşı bilir və Gürcüstanın siyasi həyatına daha çox inteqrasiya etmək qabiliyyətinə malikdir. Bu, universitetlərdə etnik azlıqlara təklif olunan və sürətli nəticələr göstərən dövlət təhsil islahatı proqramının (1 + 4 : dil öyrənmə, sonra təhsil) nəticəsidir. 2003-cü ildə Gürcüstan universitetlərində 100-dən az azərbaycanlı tələbə var idi; indi 2000-dən çoxdur. Daha da əhəmiyyətlisi odur ki, gənc nəsil yerli problemlərin mərkəzdən həll edilməsi lazım olduğunu qəbul edir.[12]

Bəzi azərbaycanlılar inteqrasiyanın müsbət təsirlərinə inanmırlar:

> **“Biz heç vaxt yaxşı dolanışıq qazana bilməyəcəyik”,**
>
> **“Bizə həmişə ikinci dərəcəli vətəndaşlar kimi davranılacaq”.**

Digərləri, uşaqlarının gürcü məktəblərinə gedəcəyi təqdirdə, azərbaycanlı icmanın mədəni və etnik kimliyinin təhlükə altında qalacağından qorxurlar. Bundan əlavə, bəzi respondentlər deyir ki, onlar gürcü məktəblərinin etnik azərbaycanlı şagirdlərə xristianlığı qəbul etdirə biləcəyindən qorxurlar. Gürcüstanın məktəb tədris proqramına dini tədqiqatlar daxildir ki, bu da praktikada xristian teologiyasının öyrənilməsi deməkdir.[13]

Lakin dillə bağlı problem, o cümlədən, mərkəzdən gələn məlumatların bu regiona çatdırılması çətinliyi hələ də qalmaqdadır. Gürcüstan televiziya kanallarını, demək olar ki, heç kim izləmir. Məlumat, əsasən, Azərbaycan kanallarından öyrənilir[14]. Sosial Tədqiqatlar və Təhlil İnstitutunun

[9] Corc Tarxan-Muravi - Ermənistan və Gürcüstan: Dayanıqlı əlaqələr (2017). https://ge.boell.org/en/2017/12/15/armenia-georgia-resilient-relationship

[10] Ömür Çelikdönmez – Ermənistanın Gürcüstandakı Cavaxetiya planı, ikinci Dağlıq Qarabağ (2017). https://kafkassam.com/ermenistanin-gurcistan-cavaheti-plani-ikinci-daglik-karabag.html

[11] Avropa Report №178 – Gürcüstanın azərbaycanlı və erməni azlıqları (2006). https://reliefweb.int/report/georgia/georgias-armenian-and-azeri-minorities-europe-report-n%C2%B0-178

[12] Zaur Şiriyev - Gürcüstanda etnik azərbaycanlılar arasında daha çox siyasi iştiraka doğru bir addım? (2016). https://cacianalyst.org/publications/analytical-articles/item/13417-a-move-towards-greater-political-participation-among-ethnic-azerbaijanis-in-georgia?.html

[13] Alman Texniki Əməkdaşlıq Təşkilatı (GTZ), Qafqaz Sülh, Demokratiya və İnkişaf İnstitutu (Tbilisi) - Gürcüstanın Kvemo Kartli Əyalətində Dil və Təhsil Problemləri ilə Mübarizə Potensialı, 13. (2006).

[14] Beynəlxalq Krizis Qrupu: Gürcüstanın azərbaycanlı və erməni azlıqları (2006). https://www.crisisgroup.org/europe-central-asia/caucasus/georgia/georgia-s-armenian-and-azeri-minorities

2019-cu ildəki tədqiqatına əsasən azərbaycanlı icmanın 13%-i Gürcüstanda baş verən hadisələr haqqında, demək olar ki, hər gün, 29%-i isə gürcü dilində məlumat əldə edir[15].

Zaman-zaman bu problem cəmiyyətdə, elə azərbaycanlıların özləri tərəfindən də qabardılır. Məsələn, "Salam" platformasından olan gənc fəal Rəşan Ziyadalıyev 2019-cu ilin may ayında paytaxt Tbilisidə "Dövlət dili, vətəndaş inteqrasiyası və Gürcüstanda insan kapitalının inkişafı" başlığı altında keçirilən tədbirdə millət vəkili Mariam Caşinin etnik azərbaycanlılarla bağlı dediyi fikrə etiraz etmiş, dil baryeri məsələsini müzakirəyə qoymuşdur[16].

"Azlıqların Hüquqları üzrə Beynəlxalq Qrup" (Minority Rights International Group) təşkilatının verdiyi məlumata görə azərbaycanlılar Gürcüstandakı etnik azlıqlar arasında ən aşağı bilik səviyyəsinə malikdirlər.[17]

Digər bir problem isə azərbaycanlıların siyasi cəhətdən aktivliyinin aşağı olmasıdır. Əsas güc strukturlarında yuxarı vəzifələri gürcülərin tutması yerli əhali və paytaxt Tbilisi arasındakı dialoqu zəiflədir. Yerli əhali həm də hakim vəzifələrin gürcülər tərəfindən tutulmasının kənd təsərrüfatı resurslarının gürcülər və azərbaycanlılar arasında qeyri-bərabər bölünməsinə səbəb olduğunu düşünür. Bununla belə, azərbaycanlılar digər etnik azlıqlara nisbətən hökumətə qarşı daha az qarşıdurma sərgiləyir. Onu da qeyd etmək lazımdır ki, buradakı etnik azərbaycanlılarla yanaşı etnik gürcülər də hökumətin onlara qarşı diskriminativ siyasət yürütdüyünü düşünür. Yerli gürcülər iddia edir ki, Gürcüstan hökuməti buradakı azərbaycanlılara daha çox dəstək verir.[18]

Gürcüstan azərbaycanlılarının siyasi cəhətdən aktiv olmamasının əsas səbəblərindən biri də siyasi aktivliyi olan şəxslərin buna maraqlı olmamasıdır. Məsələn, "Beynəlxalq Şəffaflıq – Gürcüstan" (Transparency International – Georgia) təşkilatının yayımladığı məruzəyə əsasən, azərbaycanlıların yaşadığı ərazidən millət vəkili olaraq seçilən 3 nəfər 2019-cu ildə parlamentdə danışıq hüququndan heç zaman istifadə etməyib, onlardan biri ümumiyyətlə parlamentin iclaslarına qatılmayıb.[19]

Bunu da qeyd etmək lazımdır ki, bəzən hökumətyönümlü mediada etnik azlıqların yaşadığı yerlərdəki hadisələr xüsusi olaraq qabardılır. Məsələn, bu ilin mart ayında, koronavirus pandemiyasının yenicə yayılmağa başladığı dövrdə Gürcüstanın digər ərazilərində də yoluxma keysləri olduğu halda əsas diqqət ilk ölüm halının baş verməsi ilə Marneuli bölgəsinin üzərinə çəkildi. Bu barədə xəbərlərin şərhlərində etnik gürcülər azərbaycanlılara qarşı nifrət nitqlərindən ibarət kampaniyalara başladı. Bu cür şərhlərin müəllifləri olan gürcülər azərbaycanlıların Gürcüstana yük olduğunu, onların ölkənin sosial, iqtisadi, siyasi və s. sahələrinə heç bir töhfə vermədiyini də qeyd ediblər.[20]

Yuxarıdakı münaqişə yarada biləcək səbəblər arasında Gürcüstan azərbaycanlıları üçün ən başlıca olanı mədəni fərqlilik faktorudur. Dini, dil və mədəni fərqlər azərbaycanlıların gürcü cəmiyyətinə

---

[15] QHT-lər azlıqların dillərinin informasiya siyasətinə daxil edilməsini tələb edirlər (2020). https://www.radiotavisupleba.ge/a/30504579.html

[16] Millət vəkilinin bir müddət öncə işlətdiyi ifadəyə görə gənc aktivist Rəşan Ziyadəliyev etiraz edib (2019). https://24news.ge/read/id/4229

[17] https://minorityrights.org/minorities/azeris/

[18] Manon de Korten - Gürcüstanda Azlıqların İzolyasiyasına Xitab: Milli Azlıqlar üzrə Ali Komissarın əsas aləti kimi Layihə Nişanlanması, 327. (2013)

[19] Marneuli FM: 2019-cu ildə 21 deputat Parlamentdə danışmaq hüququndan ümumiyyətlə istifadə etməyib (2020). https://www.marneulifm.ge/az/xeberler/siyaset/article/32937-2019cu-ilde-21-deputat

[20] Topçubaşov Mərkəzi: Gürcüstanda azərbaycanlılara qarşı diskriminasiya kampaniyası (2020). https://top-center.org/az/tehlil/3013/gurcustanda-azerbaycanlilara-qarsi-diskriminasiya-kampaniyasi

çətin inteqrasiya etməsinə səbəb yaradır. Bu cür izolyasiya isə qarşılıqlı olaraq dominant qrup tərəfindən diskriminativ davranışlarla nəticələnir. Təzyiqə məruz qalan azərbaycanlı icma üzvləri aqressiv davranışlar sərgiləyir. Azərbaycanlılara qarşı diskriminasiya həm də onların dini inancına görə edilir. Məsələn, aprel ayında pandemiya ilə əlaqədar olaraq azərbaycanlıların sıx yaşadığı kəndlərdə xüsusi karantin rejimi tətbiq olunmağa başladı; verilən sərəncama əsasən, sərt karantin rejiminin tətbiq olunduğu bu ərazilərdə şəxsi avtomobillərin hərəkəti qadağan edilmişdi. Bu qərar kənd təsərrüfatı məhsullarının satışı ilə məşğul olan yerli əhali arasında ciddi narazılığa səbəb olmuş, insanlar etiraz aksiyası təşkil etmişdi. Həmin aksiyanın görüntüləri hədəf kütləsi Gürcüstan azərbaycanlılarından ibarət olan "Facebook" xəbər səhifələrindən birində paylaşılmışdı. Sıravi vətəndaşlar tərəfindən xəbərə yazılan şərhlər isə olduqca maraqlı idi: “Bu hökumət nə etməyə çalışır, anlamıram, siz istəyirsiniz ki, yenə 2008-dəki hadisələr təkrarlansın?!”, “Onlar istəyir ki, biz burada Abxaziyadakı hadisələri təkrar edək.” və s.

Sıravi vətəndaşlardan başqa, əhalinin böyük etimad göstərdiyi azərbaycanlı din xadimi, Ümum-Gürcüstan Müsəlmanları idarəsinin şeyxi Mirtağı Əsədov da tətbiq edilən bu qadağaya öz mövqeyini bildirmiş, gürcü hökumətinin azərbaycanlılara qarşı ikili standartlar tətbiq etdiyini söyləmişdir: “Yenə də ikili standartların şahidi olduq, kilsə nümayəndələrinə maşından istifadəyə icazə verilir, amma bizə yox.”[21]

Gürcüstan hökumətinin yerli azərbaycanlılara qarşı apardığı ikili standartları pandemiya dövrünə təsadüf edən Pasxa və Ramazan bayramı dövründə açıq şəkildə müşahidə etmək oldu. Belə ki, Ramazan bayramı dövründə pandemiya səbəbilə məscidlərə toplaşaraq namaz qılmaq və s. qadağan edildi, Gürcü Pravoslav kilsəsinə isə Pasxa münasibətilə keçirilən ritual və ayinləri sadəcə sosial məsafə saxlamaq və maska taxmaq şərti ilə yerinə yetirməyə icazə verildi. Bu da gürcüstanın müsəlman icması, xüsusilə azərbaycanlılar arasında birmənalı olaraq xoş qarşılanmadı.

Gürcüstandakı azərbaycanlıların üz-üzə gəldiyi problemlərdən biri də etnik kimliyin qorunub saxlanılması ilə bağlıdır. 90-cı illərdən bu günə qədər bir çox yaşayış məntəqəsinin adı de-sovetizasiya adı altında ya tamamilə dəyişdirilmiş, ya da gürcüləşdirilmişdir[22]. Karli Storm “Gürcüstan azərbaycanlılarının sərhədlənməsi: Kvemo-Kartlidəki sərhədlərin və şəxsiyyətlərin araşdırılması” adlı işində nəinki yerlərə məxsus toponimlərin, hətta azərbaycanlılara məxsus bayram və tədbirlərin də adlarının və özlərinin gürcüləşdirilməsindən danışır. Bununla belə o vurğulayır ki, azərbaycanlılar bu cür dəyişikliklərə görə gürcülərə etiraz etmir, əksinə, bayram və şənliklərdə gürcülərlə bir yerdə olmaqdan məmnuniyyət hiss edir, Gürcüstan bayrağını Azərbaycan və Türkiyə bayrağı ilə yanaşı asırlar.

Bununla belə, Gürcüstan hökuməti etnik azərbaycanlılara qarşı kifayət qədər tolerantlıq göstərmir. Məsələn, Marneulinin mərkəzində yerləşən parkdan Gürcüstan azərbaycanlılarının görkəmli xadimi Nəriman Nərimanovun heykəlinin götürülməsi azərbaycanlılar arasında onların milli kimliyinə hörmətsizlik kimi qarşılandı, lakin azərbaycanlıları daha da qəzəbləndirən şey illərdir parkın “N. Nərmimanov adına park” kimi təqdim edilməsinə baxmayaraq həqiqətdə onun adının rəsmi olaraq fərqli olmasının üzə çıxması oldu. Məlum olub ki, bələdiyyə rəsmiləri parkın əsl adının sənədlərdə fərqli olması faktını əhalidən gizlədib.

[21] Politicon: Marneulidə azərbaycanlıların etiraz aksiyası (2020). http://politicon.co/az/analytics/28/azerbaijanis-rally-in-marneuli

[22] Mamuka Komaxia – Gürcüstan azərbaycanlıları: milli inteqrasiya problemləri (2004).

Digər bir fakt da, Kvemo-Kartlinin tanışlıq üçün çəkilən video-çarxında azərbaycanlıların yaşadığı ərazilərə yer verilməməsi ilə bağlıdır. Bununla bağlı azərbaycanlıların etirazından sonra video-çarxda dəyişikliklər edilərək, yenidən yayımlandı[23].

Həmçinin, Gürcüstanda etnik azlıqlara qarşı diskriminasiya xarakterli torpaq qanunu da azərbaycanlıların narahatlığına səbəb idi. Qanuna əsasən, sərhəd yaxınlığındakı torpaqlar etnik gürcülərdən başqa millətin nümayəndasinə satıla bilməzdi. Mixail Saakaşvilinin hakimiyyəti dövründə bu qanun ləğv edilsə də, iddia edilir ki, hələ də qeyri-rəsmi olaraq, etnik azlıqlara bu torpaqlara sahib olmağa icazə verilmir. Bu da yaşayış xərclərini kənd təsərrüfatı və əkinçilikdən çıxaran yerli əhali arasında narazılığa səbəb olur; onlar iddia edir ki ən yaxşı torpaq sahələri gürcülərə satılır.[24]

## Təşəbbüslər

Konflikt yarada biləcək faktorlar barəsində danışarkən etnik azlıqların yaşadığı ərazidə muxtariyyət statusunun olub-olmamasının da müəyyən rolu olduğunu gördük. Gürcüstan azərbaycanlılarının yaşadığı ərazilərin muxtariyyət statusu heç vaxt olmayıb. Bəs yerli əhali muxtariyyət iddiası qaldırıbmı?

Abxaziya və Cənubi Osetiya hadisələrinin qızışdığı vaxtda Gürcüstan hökumətinin abxazlara və osetinlərə qarşı ayrı-seçkilik edən milli siyasəti Kvemo-Kartli və Samtsxe-Cavaxetiyada - etnik azlıq icmalarının kompakt yaşayış yerlərində gərginliyə səbəb oldu. Kəskin və açıq qarşıdurmanın qarşısı alındı, ancaq münasibətlərdəki gərginlik etnik və dini qrup sərhədlərinin daha da möhkəmlənməsində müəyyənedici amil oldu. Bolnisi və Marneuli bölgələrindəki azərbaycanlılarla gürcülərin qarşıdurması nəticəsində Borçalı Muxtariyyətinin yaradılması tələbləri səsləndirildi.[25]

90-cı illərdə millətçilik ideyalarının hökm sürdüyü dövrdə azərbaycanlıların sıxışdırılması nəticəsində "Qeyrət" milli hərəkatı yaradıldı. Hərəkatın əsas məqsədi əvvəlcə Gürcüstandan olan azərbaycanlıların sürətli köçünü dayandırmaq, ikinci olaraq isə Gürcüstan milli azadlıq hərəkatı ilə dialoq qurmaq idi[26]. Hərəkatın əlində muxtariyyət iddiasını qaldırmaq üçün güc olsa da, onlar yerli azərbaycanlıların Gürcüstan cəmiyyətinə inteqrasiya etməsinə və sülh şəraitində yaşamasına üstünlük verdilər. Buna görə də hərəkatın sonrakı dövrlərdə əsas məqsədi muxtariyyət qazanmaq yox, parlamentdə daha çox yer sayıyla təmsil olunmaq idi.

Əlavə olaraq, 2013-cü ildə əslən Gürcüstanın Qardabani rayounundan olan, Rusiyaya sədaqəti ilə tanınan, Rusiyada Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyətinin prezidenti Söyün Sadıqov Gürcüstandakı seçkilər zamanı Rusiya tərəfindən maddi yardım alaraq, Gürcüstanda azərbaycanlıların muxtariyyəti uğrunda mübarizə aparacağını demişdi. Bu barədə prezident Mixail

[23] OC Media: Gürcüstanlı azərbaycanlılar səlahiyyətliləri beyinyuma videosu ilə ittiham edir(2018). https://oc-media.org/azerbaijani-georgians-accuse-authorities-of-whitewashing-promotional-video/

[24] Salvador Freni - Gürcüstan Etnik Demokratiya Olaraq: Mixail Saakaşvilinin rəhbərliyi altında Azərbaycan və Erməni Azlıqlara dair Tədqiqat, 19. (2011)

[25] Caucasus Edition: Cənubi Qafqazdakı və Türkiyədəki etnik qruplar və qarşıdurmalar (2016). https://caucasusedition.net/ethnic-groups-and-conflicts-in-the-south-caucasus-and-turkey/

[26] Conatan Vitli - Gürcüstanın Kvemo Kartli Bölgəsinin regional inteqrasiyasına mane olan maneələr, 13 (2005).

Saakaşvili Bakıya səfəri zamanı danışıb[27]. Daha sonra Gürcüstan mediasında yayımlanan xəbərlərə, əsasən, ona Gürcüstanın daxili siyasətinə qarışmaması barədə rəsmi xəbərdarlıq edildiyi deyilir.

Ümumi götürdükdə isə, belə bir nəticəyə gəlmək olar ki, Gürcüstandakı azərbaycanlıların muxtariyyət iddiası yoxdur. Onlar sadəcə səslərinin Tbilisiyə daha çox çatdırılmasını istəyir. İcmanın muxtariyyətə ehtiyac duymaması onun münaqişəyə meyilli olmamasına işarədir.

## Münaqişəyə maraqlı ola biləcək ölkələrin baxış bucağı

Azərbaycanlıların Gürcüstan ərazisində siyasi konflikt yaratmasında maraqlı ola biləcək potensial dövlətlər Rusiya, Azərbaycan və İran ola bilər. Rusiyanın buradakı marağını anti-Rusiya siyasəti yürüdən Gürcüstan hakimiyyəti ilə əlaqələndirmək mümkündür. Yəni, Rusiya burada yeni münaqişə ocağını alovlandıraraq Gürcüstanı anti-Rusiya siyasətinə görə cəzalandırmaq planı qura bilər, lakin bu versiya ermənilərin üstünlük təşkil etdiyi Samstxe-Cavaxetiya bölgəsi üçün daha uyğun hesab edilir, hətta bəzi mənbələr qeyd edir ki, hal-hazırda Cavaxetiyadakı ermənilərə Abxaziya vasitəsilə ruslar tərəfindən silah-sursat və maddi yardım edilir.

İranın maraqlarına gəldikdə isə, buradakı etnik azərbaycanlıların İslam dininə etiqad etməsi regionda İslam radikalizminin yaranmasına səbəb ola bilər. Gürcüstan azərbaycanlıların İslam dininə bu qədər möhkəm bağlılığını özünü qoruma instinkti ilə əlaqələndirmək olar. Belə ki, onalrın mədəniyyətinə tamamilə yad olan Xristianlığı ölkənin rəsmi dini olması və Gürcüstan Pravsolav Kilsəsinin hökumətlə paralel qərarlara təsir edən gücünün mövcudluğu buradakı azərbaycanlıları qorxudur və milli kimliklərini qorumaq üçün onları digərlərindən fərqli – azərbaycanlı edən xüsusiyyətə - müsəlmanlığa daha çox bağlanmağa məcbur edir. Onu da qeyd etmək lazımdır ki, Rusiya və İran arasındakı əməkdaşlıq da İranın burada Rusiya üçün vasitəçi kimi rol oynaya biləcəyini deməyimizə imkan verir.

Kvemo-Kartlinin Gürcüstandakı aktiv münaqişə ocaqları olan Abxaziya və Cənubi Osetiya ilə müqayisəsinə gəldikdə isə, bu iki nümunə arasında ciddi fərqlər mövcuddur. Bilirik ki, ilk iki münaqişə ocaqları Gürcüstana sonradan birləşdirilib. Hər iki regiounun muxtariyyəti mövcud idi. Hər iki region xarici ölkədən – Rusiyadan dəstək alıb. Hər iki regionda radikal dalğalar mövcud olub. Üçüncü region – Kvemo-Kartlidə isə bunların heç biri mövcud olmayıb. Hətta Abxaziya müharibəsi dövründə etnik azərbaycanlılar könüllü olaraq orduya yazılaraq separatçı qüvvələrə qarşı gürcülərlə birlikdə döyüşmüşdür. Məsələn, Gürcüstan azərbaycanlısı Ənvər Hümbətov 30 dekabr 1994-cü ildə Gürcüstan prezidentinin fərmanına əsasən "Döyüş meydanında göstərdiyi igidliyə və cəsurluğa görə" "Vaxtanq Qorqasali" ordeni ilə təltif olunmuşdur. "Vaxtanq Qorqasali" ordeni Gürcüstanda hərbi şücaətə görə verilən ən yüksək ordendir.[28]

## Azərbaycan – Gürcüstan münasibətlərinin regiona təsiri. Ərazi iddiaları

Qeyd edilən ikinci dövlət isə Azərbaycan Respublikasıdır. Bəs Azərbaycanın burada həqiqətən belə bir marağı ola bilərmi?

---

[27] Civil Georgia: Saakaşvili Azərbaycanla Gürcüstanın üzləşdiyi 'təhlükə' barədə danışır (2013). https://old.civil.ge/eng/article.php?id=25802

[28] Vikipediya: Ənvər Hümbətov. https://az.wikipedia.org/wiki/%C6%8Fnv%C9%99r_H%C3%BCmb%C9%99tov

Bu suala cavab verə bilmək üçün Gürcüstan və Azərbaycan münasibətlərini nəzərdən keçirmək lazımdır. Gürcüstan və Azərbaycanın müasir əlaqələri 90-cı illərdə yaranmışdır. Bütün bu illər ərzində hər iki dövlət qarşılıqlı əməkdaşlıq və dostluq münasibətlərini möhkəmləndirmək üçün çalışmışdır. 90-cı illərdə hər iki ölkə, demək olar ki, eyni taleyi yaşamış, hər iki ölkə müharibə şəraitinə girmiş, iqtisadi və sosial çöküş yaşamışdı. Bu səbəbdən də hər iki ölkənin rifahının yaxşılaşması naminə həmin dövrdə Bakı və Tbilisi arasında sıx əlaqələr qurulmağa başlandı. Azərbaycan üçün Gürcüstan enerji korridoru rolunu oynayır. Gürcüstan üçün isə Azərbaycan həm strateji, həm də iqtisadi partnyordur. Buna görə də həm Azərbaycan, həm də Gürcüstan iki ölkə arasındakı münasibətlərin korlanmaması marağındadır.

Gürcüstanın azərbaycanlı əhalisi üçün həlledici amil Gürcüstan və Azərbaycan prezidentləri arasında mövcud olan şəxsi münasibətlərdir. Azərbaycan icması Eduard Şevardnadzeni Azərbaycan Prezidenti Heydər Əliyevlə yaxın münasibətlərinə görə dəstəkləmişdi. Bu möhkəm müttəfiqlik və dostluq münasibətləri icma daxilində geniş şəkildə təbliğ edildi. Azərbaycanlılar iddia edir ki, həmin dövrdə onlara Bakı tərəfindən "Gürcüstan hökumətinə dəstək olmaq, gürcü dilini öyrənmək və Gürcüstan cəmiyyətini qıcıqlandıra biləcək problemləri qaldırmaqdan çəkinmək" tövsiyə edilib.[29]

Azərbaycan Abxaziya və Cənubi Osetiya məsələsində Gürcüstanı dəstəkləyir, Gürcüstan isə öz növbəsində Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Hər iki ölkə qondarma respublikalarda keçirilən seçkiləri tanımadığı barədə rəsmi bəyanatlar yaymışdır.[30] 2008-ci ildəki müharibədən sonra Azərbaycanın iqtisadi dəstəyi ilə Gürcüstanla əlaqələr daha da möhkəmləndi.[31]

Digər tərəfdən, hər iki ölkənin bir-birinin ərazisində etnik azlıqları mövcuddur: Şəki-Zaqatala regionunda yaşayan etnik gürcülər və Kvemo-Kartli regionunda yaşayan azərbaycanlılar. Bu da o deməkdir ki, qarşılıqlı olaraq öz ölkəsindəki etnik azlıqların təhlükəsizliyini təmin etməlidir.[32]

2019-cu ildə Gürcüstan və Azərbaycan arasında Keşikçidağ (Devid Qareci) məbədi haqqında anlaşılmazlıq baş verdi. Sərhəddə münaqişənin yaranması Azərbaycan və Gürcüstan əlaqələrində qısa müddətli soyuqluq yaratdı. Gürcüstan tərəfinin iddialarına görə sərhəddə baş verən provokasiya Rusiya yönümlü qüvvələr tərəfindən yaradılmışdı. Sonrakı mərhələlərdə sərhəddə stabillik yenidən yaradıldı və Gürcüstan-Azərbaycan münasibətləri olduğu kimi strateji və iqtisadi tərəfdaşlığa əsaslanaraq inkişaf etdirildi. Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığı Orta Asiya və Qafqazın davamlı müstəqilliyi və qərbin Orta Asiyaya çıxışı üçün çox vacibdir.[33]

---

[29] İren Spagnul - Cənubi Qafqazdakı etnik azlıqların inteqrasiyası və münaqişələrin qarşısının alınması. Gürcüstanda azərbaycanlı etnik azlığın gücləndirilməsi: Kvemo-Kartli bölgəsində işləmək, 30. (2009)

[30] Caspian News: Gürcüstanın Abxaziya Bölgəsindəki Seçki Bakıdan Reaksiya aldı (2019). https://caspiannews.com/news-detail/election-in-georgias-abkhazia-region-prompts-reaction-from-baku-2019-8-28-3/

[31] Mamuka Tsereteli - Azərbaycan və Gürcüstan: Uçucu bir bölgədə sabitlik üçün Strateji Tərəfdaşlıq, 48. (2013)

[32] Minority Rights Group International: Anna Matveeva - Cənubi Qafqaz: Milliyyətçilik, Münaqişə və Azlıqlar, 19.

[33] Svante. E. Kornel - Gürcüstan-Azərbaycan münasibətləri riskdədirmi? (2019). https://www.cacianalyst.org/publications/analytical-articles/item/13583-are-georgia-azerbaijan-relations-at-risk?.html

**Nəticə**

Kvemo-Kartlinin Gürcüstandakı aktiv münaqişə ocaqları olan Abxaziya və Cənubi Osetiya ilə müqayisəsinə gəldikdə isə, bu iki nümunə arasında ciddi fərqlər mövcuddur. Bilirik ki, ilk iki münaqişə ocağı Gürcüstana sonradan birləşdirilib. Hər iki regiounun muxtariyyəti mövcud idi. Hər iki region xarici ölkədən – Rusiyadan dəstək alıb. Hər iki regionda radikal dalğalar mövcud olub. Üçüncü region – Kvemo-Kartlidə isə bunların heç biri mövcud olmayıb. Hətta Abxaziya müharibəsi dövründə etnik azərbaycanlılar könüllü olaraq orduya yazılaraq separatçı qüvvələrə qarşı gürcülərlə birlikdə döyüşmüşdür. Məsələn, Gürcüstan azərbaycanlısı Ənvər Hümbətov 30 dekabr 1994-cü ildə Gürcüstan prezidentinin fərmanına əsasən "Döyüş meydanında göstərdiyi igidliyə və cəsurluğa görə" "Vaxtanq Qorqasali" ordeni ilə təltif olunmuşdur. "Vaxtanq Qorqasali" ordeni Gürcüstanda hərbi şücaətə görə verilən ən yüksək ordendir.[34]

Gürcüstandakı azərbaycanlıların Gürcüstan dövləti ilə hazırkı münasibətlərini ələ alaraq, Kvemo-Kartli regionunun Gürcüstan üçün yeni münaqişə ocağına çevrilib-çevrilə bilməyəcəyini nəzərdən keçirdiyimiz zaman görürük ki, hər nə qədər münaqişənin yaranmasına səbəb olacaq hallar mövcuddursa da, bu faktorları üstələyən və stabilliyi qoruyacaq olan hallar daha çoxdur. Gürcüstan azərbaycanlılarının yaşadığı ərazilərin münaqişə potensiallı olmasına baxmayaraq, bunun dəqiqliklə özünü göstərib-göstərməyəcəyinə dair fikir bildirmək çətindir. Lakin belə görünür ki, yerli azərbaycanlılar münaqişə yaratmağa meyilli deyillər, onlar özlərini Azərbaycandan çox Gürcüstana aid edir.

[34] Vikipediya: Ənvər Hümbətov. https://az.wikipedia.org/wiki/%C6%8Fnv%C9%99r_H%C3%BCmb%C9%99tov

**Politicon** is an initiative put forward by two young independent political researchers from Baku, Azerbaijan. Their intention was to establish a platform for like-minded people – not only from Azerbaijan, but from other parts of the world as well- to share their expertise and opinions in the spheres of international politics, political analysis and global economy. Along with that, the founders plan to engage renowned specialists in the above-mentioned fields, taking interviews with them to be published on the website. We strive to initiate a long-term project with the potential for sustainable development in terms of issue range, intellectual credibility and influence. Politicon is a strictly non-profit organization and is to function as an online analytical center.

*About the author:* Nuray Rustamova is a bachelor student of International Relations at Baku State University. Her spheres of interest cover the Middle East and the Caucasus, as well as ethnic and religious conflicts.

*Citation for published version (Politicon)*: Rustamova N. (2020). Kvemo-Kartli: ikinci Abxaziya – C.Osetiya keysi mümkündürmü? *Politicon.* Retrieved from:

http://politicon.co/az/essays/54/kvemo-kartli-is-a-second-abkhaziya-or-sossetia-case-possible

© All rights reserved. No part of this publication may be reproduced or transmitted in any form or by any means without permission in writing from Politicon, except in the case of brief quotations in news articles, critical articles, or reviews. Please contact us for more information.